**Şəki Apellyasiya Məhkəməsi hakimlərinin təyin və azad edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **q ə r a r a  a l ı r:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Nuru Nadir oğlu Quliyev vəzifəsi dəyişdirilərək Şəki Apellyasiya Məhkəməsinin hakimi təyin edilsin.

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Şəki Apellyasiya Məhkəməsinin hakimi Rafail Əyyub oğlu Əliyev vəzifəsinin dəyişdirilməsi ilə əlaqədar həmin məhkəmənin hakimi vəzifəsindən azad edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **Sahibə Qafarova**

**Bakı şəhəri, 21 may 2021-ci il**
**№ 319-VIQR**